# DƏLİ CEYRAN




Gözəlim, aşiqini salma nəzərdən,
Həsrətindən ölürəm, gəl bizə hərdən.
Sənə çoxdan vurulub bu dəli könlüm,
Neyləyim ki, xəbərin yoxdu xəbərdən.

N ə q ə r a t:

Gəl mənə naz eyləmə, ay dəli ceyran,
O qara gözlərinə olmuşam heyran.

Bir dönüb baxmaq ilə canımı aldın,
Məni Məcnun eyləyib çöllərə saldın.
Mən sənə inanıb öz könlümü verdim,
Məni atıb gedib əğyar ilə qaldın.

N ə q ə r a t:

Gəl mənə naz eyləmə, ay dəli ceyran,
O qara gözlərinə olmuşam heyran.